DÖVLƏT PROQRAMLARI UĞURLA İCRA OLUNUR

Son 18 ildə bölgələrin davamlı inkişafı təmin edilib

Azərbaycanda regionların inkişafı dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Hələ 2003-cü ildə prezident seçkiləri zamanı cənab İlham Əliyev Azərbaycanın gələcək inkişafını regionların müəyyən edəcəyini, bölgələrdə kifayət qədər iqtisadi potensialın olduğunu bəyan edərək regionların inkişafının sürətləndirilməsini özünün sosial-iqtisadi platformasının başlıca hədəflərindən biri kimi müəyyənləşdirmişdir.

Birinci Dövlət Proqramının əsas qayəsi sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, buradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarət idi. Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı, onların iqtisadi gücünü artıracaq və sosial problemlərin həllini sürətləndirəcəkdi.

Dövlət Proqramında iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, neft gəlirlərinin bölgələrin iqtisadi inkişafına yönəldilməsi, kənd təsərrüfatının, emal sənayesinin, xidmət və digər infrastruktur sahələrin, turizmin inkişafının təmin edilməsi, əhalinin məşğulluq səviyyəsini yüksəltməklə güzəranının daha da yaxşılaşdırılması öz dolğun əksini tapmışdır.

Cənab Prezident proqramın icra prosesini ilk gündən diqqətdə saxlamış, 2004-2008-ci illərdə respublikamızın əksər rayonlarına səfər edərək Dövlət Proqramı çərçivəsində görülən işlərlə yerindəcə tanış olmuş, tapşırıq və tövsiyələrini vermişdir. Bu səfərlərin nəticəsi kimi bir sıra iqtisadi rayonlara daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 17 sərəncam imzalamış, proqramda nəzərdə tutulmayan bəzi mühüm məsələlər uğurla həll edilmişdir.

Möhtərəm Prezident çıxışlarının birində bu barədə demişdir: "Azərbaycanın hər bir regionu, bölgəsi inkişaf edir. Bizim bir müddət bundan əvvəl qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramının məqsədi də məhz budur ki, təkcə paytaxt Bakı deyil, Azərbaycanın hər bir şəhəri, rayonu, kəndi inkişaf etsin".

Dövlət Proqramı aktuallığına, əhəmiyyətinə və miqyasına görə hər zaman diqqət mərkəzində olmuşdur. "Respublika" qəzetinin yaradıcı kollektivi də Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin geniş oxucu kütləsinə çatdırılması və təbliğini öz fəaliyyətinin əsas istiqamətlərindən biri hesab etmişdir. Redaksiya kollektivi tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş birinci və ikinci Dövlət proqramlarının materialları qəzetin kompüter mərkəzində yığılıb səhifələnmiş və nəfis şəkildə kitab halında çap olunmuşdur.

Qəzetin səhifələrində görkəmli alimlərin, mütəxəssislərin, oxucuların Dövlət Proqramı haqqında fikirləri, rəyləri mütəmadi qaydada yer almış, proqramın icra vəziyyəti ilə əlaqədar müntəzəm yazılar dərc olunmuşdur.

"Respublika" qəzeti 2004-cü ilin mart ayında daha bir ilkə imza ataraq Lənkəran Şəhər İcra Hakimiyyəti ilə birgə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" geniş müzakirəsini keçirmişdir.

Lənkəran-Astara iqtisadi rayonunun mərkəzi olan Lənkəranda keçirilən "Dəyirmi masa"da Baş redaktor müavini, redaksiya əməkdaşları, Lənkəran Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, rayonun icra strukturlarının, müvafiq idarə, müəssisələrin təmsilçiləri, mütəxəssislər, qəzetin fəal oxucuları iştirak edirdilər.

Tədbirdə Dövlət Proqramında Lənkəran rayonu üçün nəzərdə tutulan əsas vəzifələr, çayçılığın, tərəvəzçiliyin, habelə kənd təsərrüfatının digər ənənəvi sahələrinin, eləcə də emal sənayesinin inkişafı ilə bağlı geniş müzakirələr aparıldı, çox vacib təkliflər, rəylər səsləndi.

İcra başçısı belə bir tədbiri ölkənin nüfuzlu mətbuat orqanı - "Respublika" qəzeti ilə birgə keçirməyin çox mühüm əhəmiyyət daşıdığını, Lənkəran Şəhər İcra Hakimiyyətinin qəzetin redaksiyası ilə müntəzəm əlaqə saxladığını, bu cür birgə layihələri gələcəkdə də davam etdirməyin vacibliyini xüsusi vurğuladı.

Qəzetin Baş redaktor müavini "Dəyirmi masa"da səslənən təkliflərin perspektivlərdən xəbər verdiyini diqqətə çatdıraraq işgüzar müzakirənin təşkilinə və səmərəli əməkdaşlığa görə Lənkəran Şəhər İcra Hakimiyyətinin rəhbərliyinə, rayon ictimaiyyətinə redaksiya kollektivi adından minnətdarlığını bildirdi.

İndi birinci Dövlət Proqramının qəbulundan 18 il keçir. Artıq sayca dördüncü olan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019-2023-cü illər)" icra olunur.

Dövlət proqramlarında qarşıya qoyulmuş vəzifələrin uğurlu icrası sayəsində regionların davamlı və tarazlı inkişafı təmin olunmuş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən xidmətlərin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin məşğulluq səviyyəsi yüksəlmiş, güzəranı, maddi rifah halı yaxşılaşmışdır.

Məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər nəticəsində ölkəmizin iqtisadi və hərbi qüdrəti daha da güclənmiş, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə 44 günlük Vətən müharibəsində rəşadətli ordumuzun gücü ilə torpaqlarımız işğaldan azad edilmişdir.

Həmin ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlara qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər görülür. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmış, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılmışdır. Fərmanda göstərildiyi kimi, Qarabağ və Şərqi Zəngəzur yeni iqtisadi rayonları yaradılmış, bəzi iqtisadi rayonların tərkibində müvafiq dəyişikliklər edilmişdir.

Prezident İlham Əliyev dördüncü proqramın icrası nəticəsində bu günə qədər həll olunmamış məsələlərin tam şəkildə həyata keçəcəyini vurğulayaraq demişdir: "Mən bir neçə dəfə demişəm, əgər ölkəmizin bütün kəndlərinin problemləri həll olunarsa, deməli, bütün problemlər də həll olunacaq. Xüsusilə nəzərə alsaq ki, hazırda regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı icra edilir. Hesab edirəm ki, dördüncü proqramın icrası nəticəsində bu günə qədər həll olunmamış məsələlər tam şəkildə öz həllini tapacaqdır".

Lənkəran-Astara iqtisadi rayonu Lənkəran, Masallı, Cəlilabad, Astara, Lerik və Yardımlı rayonlarını əhatə edir. Son illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət



Proqramının icrası ilə əlaqədar görülən işlər sadə, zəhmətkeş insanların ürəyindən xəbər verir.

Abadlıq-quruculuq sahəsində Lənkəran rayonunun öz müsbət təcrübəsi vardır. Yaxın aylarda 100 yaşı tamam olacaq Kamal Kələntərli bütün ömrünü doğma rayonun inkişafına, tərəqqisinə həsr edib. Uzun illər rəhbər vəzifələrdə çalışıb. İyirmi ildən artıq Lənkəran Rayon Ağsaqqallar Şurasının sədri işləyib. Hazırda şuranın fəxri sədridir. Lənkəran şəhərinin mərkəzində heykəli ucaldılıb. **Ağsaqqal Kamal Kələntərli** deyir: "Lənkəranın son 80 ildən artıq inkişafı gözümün önündə baş verib. Ümummilli liderin təməlini qoyduğu inkişaf strategiyasını Azərbaycan Prezidenti cənab İlham Əliyev uğurla davam və inkişaf etdirir. Lənkəran dövlət qayğısı ilə əhatə olunub. Son 18 ildə rayonda böyük abadlıq, quruculuq işləri görülüb. Lənkəran heç vaxt indiki kimi inkişaf etməyib.

Prezident İlham Əliyev Lənkərana 12 dəfə səfər edib, mühüm strateji əhəmiyyətli obyektlərin təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Ötən illərdə Lənkəran Müalicə-Diaqnostika Mərkəzi, Beynəlxalq Hava Limanı, Lənkəran İstisu Sağlamlıq Mərkəzi, Lənkəran Uşaq Sağlamlıq Mərkəzi, Televiziya kanalının binası, Lənkəran Olimpiya İdman Kompleksi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialı, çoxlu sayda infrastruktur obyekt zövqlə, xüsusi memarlıq üslubunda tikilib.

Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu yenidən çəkilib. Təzə yolla paytaxt Bakıya cəmi 2-2,5 saata getmək olur. Lənkəran-Lerik, Lənkəran-Vilvan-Osaküçə-Türkəncil, Hirkan-Daştatük-Biləsər, Aşağı Nüvədi-Kənarmeşə-Şürük, Şürük-Vel-Qamışovka, Vilvan-Zövlə-Boladı-Liman, Liman-Nərimanabad-Balıqçılar, Səpnəkəran-Şürük-Sütəmurdov-Bəlləbur-Qurumba, eləcə də şəhərdaxili avtomobil yolları əsaslı şəkildə yenidən qurulub.

Lənkəran şəhərinin mərkəzində ulu öndərin adını daşıyan müasir, yaraşıqlı bir park salınıb. Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, Bayraq Meydanı şəhərə xüsusi gözəllik verir. Sahil parkı, Göyşaban dairəsində Xalq Sənətkarlığı şəhərciyi sakinlərin istifadəsinə verilib. Şəhidlər Xiyabanı, Azərbaycanlıların soyqırımı abidə-kompleksi yenilənib.

N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı, Tarix-Diyarşünaslıq Muzeyi, Mədəniyyət Mərkəzi, 350 çarpayılıq rayon mərkəzi xəstəxanası yenidənqurma və bərpa işlərindən sonra istifadəyə verilib.

"Cənub-Aqro" MMC-nin çəltik zavodu, Lənkəran şəhərində istehsal gücü ildə 18 min ton olan qənnadı məhsulları fabriki, Sütəmurdov kəndində konserv zavodu, çay fabriki, 17 otel və 10 istirahət mərkəzi, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 90 mənzilli 3, evləri qəzalı vəziyyətdə olan sakinlər üçün 100 mənzilli 4 yaşayış binası tikilib.

2003-2021-ci illərdə 52 məktəbdə təmir-tikinti işləri aparılıb. Məktəblərin 42-si yenidən inşa olunub, 3-ü əsaslı təmir edilib. Modul tipli 7 məktəb quraşdırılıb, 2 məktəb binası əsaslı təmir olunur. Lənkəran Dövlət Universitetinin yeni tədris korpusunun və Lənkəran Peşə Liseyi üçün tədris, yataqxana və laboratoriya binalarının inşasına başlanılıb.

2003-cü illə müqayisədə keçən il rayonda məhsul buraxılışı 3,4 dəfə, sənaye məhsulu 7,2 dəfə, əsas kapitala yönəldilmiş vəsait 4,9 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 5,3 dəfə artıb. 2003-2021-ci illər ərzində rayonda 52844 yeni iş yeri açılıb.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019-2023-cü illər)" Masallının da tərəqqisi, yüksəlişi üçün geniş imkanlar açıb. Proqram çərçivəsində rayonda həlli vacib olan layihələr həyata keçirilir, yeni iş yerləri yaradılır və əhalinin sosial rifah halı yüksəlir.

> **"Bizim iş üslubumuz belədir: bölgələrdə problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var", - deyən Prezident İlham Əliyev 11 fevral 2004-cü il tarixdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" imzaladı.**

Əslən rayonun Xıl kəndindən olan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru, respublikanın Əməkdar müəllimi Musa Quluzadə doğma Masallının inkişafı, tərəqqisi ilə sevindiyini, qürur duyduğunu bildirir: "Yol təkcə rahatlıq deyil, həm də mədəniyyətdir. Əvvəllər xarici ölkələrdə rahat, geniş, səliqəli avtomobil yollarını görəndə həsədlə düşünürdüm ki, görəsən bizdə nə vaxtsa belə müasir yollar olacaqmı?! Bu gün fəxarətlə demək olar ki, dünyanın ən inkişaf etmiş ölkələrindən heç də geri qalmayan müasir yollarımız, körpülərimiz salınıb. Həm də belə möhtəşəm yollar, körpülər təkcə paytaxtda deyil, respublikamızın bütün regionlarında vardır. Möhtərəm Prezidentimizin təşəbbüsü və yüksək qayğısı ilə çəkilmiş Ələt-Astara magistral yolu cənub bölgəsinin mən deyərdim ki, ən böyük problemini həll edib. İndi 2 saata Bakıdan Masallıya rahat getmək olur. Əvvəllər isə bu yolu 4 saata, bəzən daha çox vaxta getmək olurdu.

Son illər yeni tikililər Masallı şəhərini bəzəyir. Şəhərin mərkəzində Heydər Əliyev Xatirə Parkı salınıb, Heydər Əliyev Mərkəzi tikilib. Ərazidə Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq İncəsənət Məktəbi ən müasir layihə əsasında inşa olunub. Şəhidlər xatirə kompleksi, Qəhrəmanlar parkı əsaslı şəkildə yenidən qurulub.

Şəhərin Heydər Əliyev prospektində ucaldılan binalar, salınan yaşıllıqlar əraziyə xüsusi gözəllik verir. Bayraq meydanı, Dövlət Rəmzləri Muzeyi, Olimpiya İdman Kompleksi, Masallı ASAN Xidmət, Regional Boks və Taekvando, Masallı Dövlət Aqrar İnkişaf mərkəzləri, Rayon Polis Şöbəsinin müasir üslublu yeni binaları burada yerləşir.

Mərkəzi Rayon Xəstəxanası əsaslı şəkildə yenidən qurularaq müasir tibbi avadanlıqlarla təchiz edilib. Burada akademik Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunun filialı yaradılıb. Masallıdan və qonşu rayonlardan olan xəstələr müayinə və müalicə üçün daha çox bura müraciət edirlər.

Son illər Masallı çox dəyişib və sürətlə də dəyişilir. Xüsusən regionların inkişafı ilə bağlı qəbul edilən Dövlət Proqramı rayonun inkişafına güclü təkan verib. Masallı şəhərinin daxili küçələrinə asfalt döşənib, xeyli kəndlərarası və kənd yolları əsaslı təmir edilib. Rayon əhalisi demək olar ki, təbii qazla təmin edilib, yeni məktəblər, bağçalar, tibb ocaqları, ictimai binalar inşa olunub. Viləş çayının sağ və sol sahili boyunca park salınır, masallılılar bunu bulvar adlandırırlar. Rayon mərkəzinə, kəndlərə su çəkilib, kanalizasiya sisteminin inşası başa çatdırılıb. Şəhid ailələri üçün bir neçə yaşayış binası tikilib. Rayon mərkəzində "Sənaye məhəlləsi" yaradılıb. Çayçılıq, çəltikçilik yenidən vüsətlə inkişaf etdirilir. Fermerlərin fəaliyyəti üçün geniş imkanlar açılıb. Rayonda turizmin inkişafına xüsusi diqqət yetirilir. Əlbəttə, bunlar Masallıda həyata keçirilən işlərin ancaq bir hissəsidir. Yəqin ki, irəlidə daha böyük, daha vacib işlər görüləcək və Masallının sabahı daha gözəl olacaqdır".

Cəlilabad böyük iqtisadi potensiala malik aqrar rayondur. Dövlət Proqramında kənd təsərrüfatı məhsulları istehsalı və emal sahəsinin inkişafı ilə bağlı qarşıya mühüm vəzifələr qoyulub. **Rayon statistika İdarəsinin rəisi Arif Nəcəfov** proqramın icrası istiqamətində görülmüş işlərdən söhbət açaraq dedi: "Möhtərəm Prezidentimizin yüksək qayğısı sayəsində aqrar sahədə yaradılmış sahibkarlıq subyektləri uğurla fəaliyyət göstərir. "Avanqard" MMC taxılçılıq və heyvandarlıq sahəsində nümunəvi, qabaqcıl təcrübəyə malikdir. Ölkə başçısı Cəlilabada səfəri çərçivəsində müəssisənin taxılçılıq təsərrüfatı ilə tanış olmuş, un dəyirmanı və taxıl anbarının, dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin açılış mərasimlərində iştirak etmişdir. "Günəşli-Aqro" MMC-nin nəzdində yaradılmış aqroparkda müasir heyvandarlıq kompleksi fəaliyyət göstərir.

DÖVLƏT PROQRAMININ İCRASI LƏNKƏRANIN KEÇMİŞ ŞÖHRƏTİNİ QAYTARACAQ, BÖLGƏNİN DİNAMİK İNKİŞAFINI TƏMİN EDƏCƏKDİR

Dövlət Proqramı çərçivəsində rayonda abadlıq, tikinti, quruculuq işləri geniş vüsət alıb. Cəlilabad şəhərində Heydər Əliyev Mərkəzi, Heydər Əliyev Muzeyi inşa edilib. Ulu öndərin adını daşıyan əsrarəngiz, gözəl bir məkan-seyrəngah salınıb. Cəlilabad Müalicə Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, uşaq-gənclər şahmat məktəbi və digər mühüm sosial obyektlər tikilib. 145 çarpayılıq mərkəzi rayon xəstəxanası, Cəlilabad telekommunikasiya qovşağının inzibati və texnoloji binası, rayon tarix-diyarşünaslıq muzeyi, şəhər avtovağzalının inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və kanalizasiya infrastrukturunun yaradılması layihəsi həyata keçirilib.

Yerli əhəmiyyətli avtomobil yollarının, eləcə də kəndlərin giriş yollarının və kəndlərarası avtomobil yollarının tikintisi davam etdirilir. Dövlət vəsaiti hesabına 17 kilometr uzunluğunda Cəlilabad-Hamarqışlaq-Sadatlı, 34 kilometrlik Qarazəncir-Qarakazımlı-Bayxanlı, ümumi uzunluğu 21 kilometr olan Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı, 9 kilometrlik Cəlilabad-Uzuntəpə, Cəlilabad-Astanlı-Cəngan-Soltankənd avtomobil yolları müasir standartlara uyğun tikilərək istifadəyə verilib.

Rayonun elektrik enerjisi, təbii qazla təchizatı xeyli yaxşılaşıb. Cəlilabad və Göytəpə şəhərləri və rayonun 118 kəndindən 63-ü qazlaşdırılıb. Mənzil sahələri üzrə qazlaşma 83,4 faiz təşkil edir. Əhaliyə göstərilən kommunal və rabitə xidmətlərinin keyfiyyəti də yüksəlib.

Dövlət proqramlarının icrası sayəsində 61 yeni məktəb binası tikilib istifadəyə verilib. Bunun 28-i modul tipli məktəblərdir. Rayonda açılan iş yerlərinin sayı 69278-ə çatır.

Mərasim Hacızadə Astaranın tanınmış, nüfuzlu ziyalılarından biridir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının rayonun bütün qəsəbə və kəndlərini əhatə etdiyini vurğulayaraq deyir: "Son illərdə Astara rayonunda da irimiqyaslı layihələr həyata keçirilib. Cənab Prezidentin imzaladığı sərəncamlara əsasən rayonun şəhər, qəsəbə və kəndlərində xeyli tikinti-quruculuq, abadlıq işləri görülüb. Astara şəhərinin mərkəzində müasir memarlıq üslubunda Heydər Əliyev Mərkəzi, Gənclər evi, Astara Olimpiya İdman kompleksi, Boks Mərkəzi inşa edilib. 40-dan çox məktəb, uşaq bağçası yenidən tikilib, yaxud əsaslı təmir olunub. Astara Rayon Mərkəzi xəstəxanası əsaslı şəkildə təmir edilib. Şəhid ailələri, Qarabağ və Çernobıl əlilləri üçün iki çoxmərtəbəli yaşayış binası və fərdi evlər tikilib. Sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 48 və 36 mənzilli yaşayış binaları tikilib istifadəyə verilib. Astara şəhərinə içməli su xətti çəkilib. On kilometrlərlə şəhərdaxili və kənar yollar təmir olunub.

Ölkə Prezidenti cənab İlham Əliyev səkkiz dəfə rayona səfər edib. Çox mühüm strateji əhəmiyyətli obyektlərin təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak edib. Astaralılar cənab Prezidenti yaradıcı, qurucu, qayğıkeş rəhbər kimi çox sevirlər.

Prezident rayona ilk səfərində Astara şəhərinin mərkəzində müasir memarlıq üslubunda tikilmiş "Şindan" hotelinin, Astara yük terminalının, Astara 2 saylı çay fabrikinin açılışlarında iştirak edib.

Astara elektrik stansiyası, Astara qazkompressor stansiyasının birinci və ikinci bloku, Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyası rayon təşkilatının inzibati binası, Gənclər evi, Astara gömrük buraxılış məntəqəsinin yeni inzibati binası, Astara Olimpiya İdman Kompleksi, Astara Boks Mərkəzi, beynəlxalq əhəmiyyətli Ələt-Astara avtomobil yolu, Astara-Bala Şahağac, Kijəbə-Qəcimardə, Kijəbə-Ojakəran, Ərçivan-Şüvi-Qapıçıməhəllə, Deqədi-Pəlikəş, Taxtanəkəran-Miki, Taxtanəkəran-Toradi avtomobil yolu və dənizkənarı park-bulvar kompleksi möhtərəm Prezidentimizin Astaraya yüksək qayğısı sayəsində tikilib istifadəyə verilib.

Heç vaxt yolu və işığı olmayan Dolu, Diqo, Avyarud, Sibiyyət kəndlərinə cənab Prezidentin Sərəncamı ilə avtomobil yolu və elektrik xətti çəkilib. İllərlə həsrətində olduqları arzularına qovuşan sakinlər yüksək diqqət və qayğıya görə cənab Prezidentə dərin minnətdarlıqlarını bildirirlər.

Müasirləşən infrastruktur, rayonun ucqar dağ kəndlərinə çəkilən asfalt yollar insanlara rahatlıq gətirir, həm də turizmin inkişafına təkan verir. Xəyallara gəlməyən möhtəşəm layihələrin ölkəmizin cənub qapısı Astarada reallaşması, ən ucqar kəndlərin hərtərəfli inkişafı, cənab Prezidentin ölkə vətəndaşlarına yüksək diqqət və qayğısının əyani nümunəsidir".

Lerik ucqar dağ rayonudur. Dövlət proqramlarının uğurla icrası nəticəsində rayon mərkəzinin və kəndlərin siması xeyli dəyişib. Prezident Lerikə səfərində görülmüş işləri yüksək qiymətləndirib: **"Lerik rayonunda görülən işlər məni çox sevindirir. Lerik abadlaşır, gözəlləşir, inkişaf edir. Bütün lerikliləre öz hörmətimi bildirirəm və yeni uğurlar arzulayıram".**

"Cənab Prezident Lerikə 4 dəfə səfər edib" - deyə **Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov** söhbətə başlayır: "Dövlət başçımızın rayonumuza hər gəlişi unudulmaz tarixi hadisəyə çevrilib. Cənab Prezident 2005-ci il sentyabr ayının 8-də ilk səfəri çərçivəsində 56 kilometrlik Lənkəran-Lerik yolunun əsaslı yenidənqurmadan sonra açılışında iştirak etdi. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb əhalinin vəziyyəti, Lerikin qayğıları, problemləri ilə maraqlandı.

Ucqar rayon olduğu üçün keçmiş sovet dövründə bu rayona təbii qaz çəkilməmişdir. Möhtərəm Prezidentin yüksək diqqət və qayğısı sayəsində ilk dəfə Lerikə qaz çəkildi. 2006-cı il oktyabr ayının 23-də cənab Prezident rayona təbii qazın verilməsinə həsr olunmuş mərasimdə iştirak etdi.

Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin icrası nəticəsində rayonda yeni infrastruktur yaradılıb, sahibkarlıq, turizm inkişaf edir. Lerik şəhərində Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, Rayon İcra Hakimiyyəti üçün yeni inzibati bina, Uzunömürlülər muzeyi, Şəhidlər abidə-kompleksi tikilib. Mərkəzi rayon xəstəxanası, internat tipli gimnaziya, rayon mədəniyyət evi, uşaq incəsənət məktəbi əsaslı təmir edilərək istifadəyə verilib. Piran, Blaband, Şingədulan, Coni, Pirasora, Cəngəmiran, Vistən, Bırkandul, Pirzəküçə, Barzavu kəndlərində müasir üslubda həkim məntəqələri inşa edilib. Qosmalian kənd xəstəxanası əsaslı şəkildə təmir olunub.

1985-2003-cü illərdə rayonda cəmi 3 məktəb binası tikilibsə, 18 il ərzində 85 məktəb təzədən tikilib, yaxud əsaslı təmir edilib. Yaxın vaxtlarda rayonda məktəb problemi tamamilə həll olnacaq.

Dövlət Proqramı çərçivəsində rayonun ayrı-ayrı ərazilərinə yeni asfalt yollar çəkilib. 2013-cü ildə uzunluğu 26,5 kilometr olan Lerik-Qomalian-Kəlvəz, 2016-cı ildə 36 kilometrlik Noda-Şingədulan-Xanagah, 2018-ci ilin oktyabr ayında 27 kilometrlik Piran-Hamarat-Vijaker, 23 kilometrlik Lerik-Şinəband-Orand-Nuravud-Zardəbərə avtomobil yolu əsaslı təmir edilərək istifadəyə verilib.

Dövlət Proqramının icrası sayəsində Lerik şəhərinə dağlar qoynundan, 18 kilometr məsafədən Şonayçola kəndindən içməli su xətti çəkilib. İlk dəfə rayon mərkəzində kanalizasiya sistemi qurulub.

Enerji təchizatını yaxşılaşdırmaq məqsədilə Lerik şəhərində 16,5 meqavat gücündə modul tipli elektrik stansiyası tikilib. Dövlət Proqramı əsasında rayonun 56 kəndi qazlaşdırılıb. Əhalinin 42 faizi mavi qazdan istifadə edir. Hazırda Babaküçə kəndinə təbii qaz xətləri çəkilir. Rayon İcra hakimiyyətinin rəhbərliyi əhalini daha çox narahat edən yol, qaz və digər problemlərlə əlaqədar müvafiq dövlət orqanlarına müraciət ünvanlayıb".

"Keçmiş sovet dövründən rayonun problemləri yığılıb qalmışdı", - deyə **həmkarımız, Yardımlı rayonunun nüfuzlu ziyalılarından olan, şair-publisist Ələsgər Cəfər** bildirir: "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları ucqar dağ rayonunun inkişafına stimul verib. Rayon mərkəzində, kəndlərdə 18 il ərzində xeyli tikinti, abadlıq işləri görülüb. Yardımlı şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan park salınıb. Heydər Əliyev Mərkəzi inşa edilib. Pirembel kəndində Heydər parkı tikilib istifadəyə verilib. Rayon Mədəniyyət Mərkəzinin binası əsaslı təmir olunub.

2004-cü ildən indiyə kimi 60-dan çox müasir və modul tipli məktəb binası, uşaq bağçası, uşaq incəsənət məktəbi tikilib. Mərkəzi Rayon Xəstəxanası əsaslı təmir edilərək müasir inventar və tibbi avadanlıqlarla təchiz olunub. Avaş, Şıxlar, Hamarkənd, Porsova kəndlərində müasir layihə əsasında həkim məntəqələri inşa edilib. Yardımlı şəhərində idman kompleksi tikilib istifadəyə verilib.

Rayon mərkəzinə su xətti çəkilib. Yardımlı şəhərinə sutka ərzində fasiləsiz su verilişi təmin edilib. İlk dəfə olaraq müasir tələblərə cavab verən kanalizasiya sistemi qurulub. Sineyir su mənbəyindən 8 kəndə su xətləri çəkilib. Bir neçə kənddə artezian quyuları qazılıb.

2005-ci ildə rayon mərkəzi ilk dəfə olaraq qazlaşdırılıb. Hazırda 15-ə yaxın yaşayış məntəqəsi mavi yanacaqdan istifadə edir.

Rayonda yol problemi öz həllini tapır. Cəlilabad-Yardımlı yoluna asfalt döşənib. 32 kilometrlik Yardımlı-Avaş-Deman-Arvana, 14 kilometrlik Yardımlı-Hamarkəndnə-Abasabad, 22 kilometrlik Yardımlı-Bozayran-Osnakəran-Vərgədüz-Bürzünbül-Bilnə-Sırıq, Şəfəqli-Pirembel, Yardımlı-Çayünə-zü, Yardımlı-Ostayır və digər avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Yardımlı-Hamarkənd, Sırıq-Vərgədüz yolunda, Keçələkəran və Təşkan kəndlərində körpülər salınıb".

Dövlət proqramlarının uğurla icrası nəticəsində Lənkəran-Astara iqtisadi rayonuna daxil olan rayonların siması, sosial mənzərəsi dəyişib. Əhalinin məşğulluq səviyyəsi yüksəlib, rifah halı, sosial-məişət şəraiti də yaxşılaşıb. İnsanlarda sabaha inam artır. Görülmüş işlər daha gözəl, firavan, xoşbəxt həyatdan soraq verir.



Əlisəfa HƏSƏNOV,
"Respublika".